**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri cənab Anar Bağırova**

**Surəti; 9 saylı vəkil bürosunun müdiri Eldar Əliyarova**

Xaçmaz rayonu, Çarxı kəndində anadan olmuş Məmmədova Mədinə Rza qızı tərəfindən **T; 050-365-65-92**

## Təşəkkürnamə

**Hörmətli Anar müəllim, vəkil Həsənov Bəkir Sabir oğlunun etiraz etməsinə baxmayaraq sizin kollektivdə 9 saylı vəkil bürosunun vəkili Həsənov Bəkir Sabir oğlu kimi bacarıqlı mütəxəssislərin olmasına görə sizə, bütün vəkil kollektivinə və şəxsən Həsənov Bəkir Sabir oğluna öz təşkkürümü bildirməyi özümə borc bilirəm.**

Belə ki, oğlum Məmmədov Semral Bakı Ağır Cinayətlər Məhkəməsində əsassız olaraq Azərbaycan Respublikası CM-nin 234.4.1 və 234.4.3 maddələri ilə təqsirləndirilən şəxs qismində ittiham edilirdi. Ümidim hər yerdən kəsilmişdi, oğlumu 12 ilədək həbs gözlədiyini bilirdim və ibtidai istintaq bitdikdən sonra maddi imkanım olmadığına görə vəkildən imtina etmək qərarına gəlmişdim. Lakin mənim maddi sıxıntımı görən vəkil Həsənov Bəkir Sabir oğlu vəkil xərcini üzərinə götürdü və mənə bildirdi ki, Məmmədov Semralın Bəraət alması üçün onda tutarlı sübutlar var. Beləliklə 23 may 2025-ci ildə Bakı ACM-də Hakim Vüqar Quliyevin sədrliyi ilə keçirilən məhkəmə iclasında oğlum Məmmədov Semrala bəraət verildi və oğlum azadlığa buraxıldı. Sevincimin hüdudu yoxdur. Əvvəllər vəkilin roluna inanmazdım.

***Anar müəllim, cəmiyyətimizə belə vəkillər bəxş etdiyinizə görə sizə öz adımdan və ailəmizin adından minnətdarlığımı və sonsuz təşəkkürümü bildirirəm.***

***Əlavə edirəm; şəxsiyyət vəsiqəsinin surəti.***

Hörmətlə; **Məmmədova Mədinə Rza qızı**

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 2056
«05» 06 2025